Respublika .- 2025.- 8 mart (№ 52).- S.13.

Səhnə sənəti: mədəni inkişafın ən parlaq təcəssümü

Azərbaycan teatrı tarix boyu xalqın mənəvi ucalığını, estetik duyumunu və mədəniyyətlərarası dialoqdakı rolunu parlaq şəkildə əks etdirmişdir.

10 Mart - Azərbaycan Milli Teatr Günü bir sənət növünün inkişaf tarixinə işıq salan, həm də bir millətin incəsənətə olan tükənməz sevgisinin, keçmişini və gələcəyini teatr səhnəsində yaşatmaq əzminin rəmzidir. Azərbaycan teatrı əsrlər boyu xalqın milli kimliyini qoruyub saxlamaq, onu dünya mədəniyyət xəzinəsinə inteqrasiya etdirmək və eyni zamanda siyasi-ictimai proseslərə incəsənətin dili ilə təsir etmək kimi ali missiyanı daşıyıb.

Ölkəmizdə teatr sənətinin kökləri çox qədimlərə gedib çıxır. Hələ ibtidai dövrlərdə xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatrı nümunələri (Maral oyunu, Kilimarası), bayram tamaşaları (Kosa-kosa) və dini səciyyəli səhnələşdirmələr (Şəbih) geniş yayılmışdı. Bu tamaşalar əyləncə vasitəsi olmaqla bərabər, həm də xalqın dünyagörüşünü, inanclarını, ictimai-siyasi düşüncəsini ifadə edən sənət nümunələri idi.

Teatr mədəniyyətinin qədimliyinə dair yazılı mənbələr də mövcuddur. XVII əsrin ikinci yarısında fransız səyyah Jan Batist Şarden İrəvanda Çuxursəd bəylərbəyisinin sarayında qonaq olarkən ona təqdim edilən üçhissəli tamaşanın estetik zənginliyinə valeh olmuş və bu səhnə əsərini "Şərqin operası" adlandırmışdı. Bu məlumat fransız Jan Batist Şardenin "Voyages en Perse et autres lieux de l'Orient" (Fars və Şərqin digər yerlərinə səyahət) adlı əsərində qeyd olunmuşdur. Bu fakt bir daha sübut edir ki, Azərbaycan xalqı əsrlər boyu teatr mədəniyyətinə sahib olmuş və onu incəsənətinin ayrılmaz hissəsi kimi yaşatmışdır.

Azərbaycanda teatr sənətinin tarixi 1873-cü il martın 10-da böyük dramaturq və maarifçi Mirzə Fətəli Axundzadənin ölməz əsəri "Sərgüzəşti-vəziri-xani Lənkəran" tamaşasının səhnəyə qoyulması ilə bağlıdır. Bu hadisə xalqımızın mədəni inkişaf yolunda atdığı fundamental və strateji addım idi. Məhz həmin gün Azərbaycan dramaturgiyası və səhnə sənəti milli identiklik kontekstində yeni dövrə daxil oldu, ictimai şüurun formalaşmasında əhəmiyyətli rol oynamağa başladı. Azərbaycan teatrı zamanla milli ruhun güzgüsünə çevrildi, xalqın arzu və ideallarını əks etdirən, sosial ədalət və azadlıq axtarışlarını səhnəyə daşıyan bənzərsiz bir tribuna funksiyasını yerinə yetirdi. Dramaturgiya və teatr sənəti Azərbaycanın milli-mədəni inkişafının ayrılmaz parçası olmaqla yanaşı, siyasi və ictimai proseslərə təsir göstərən ideoloji güc olaraq da yüksəldi.

XIX əsrin sonlarında teatr tamaşalarının yerli əhali arasında geniş populyarlıq qazandığı dövrdə Bakıda heç bir teatr binası mövcud deyildi. Bu vəziyyəti nəzərə alaraq milyonçu Hacı Zeynalabdin Tağıyev Bakıda teatr binası inşa etməyə qərar verdi. İlk layihənin memarı Xrisanf Vasilyev idi, binanın inşasına isə mühəndis Ferdinand Lemkul rəhbərlik edirdi. 1883-cü ilin sonlarına doğru teatr binasının inşası tamamlandı və o dövrdə binanın tutumu 578 nəfər idi. 1898-ci ildə teatrın yenidənqurma işləri mülki mühəndis Koqnovitski tərəfindən həyata keçirilsə də, layihə uğursuz oldu. Sonra isə Qoslavski adlı memarın rəhbərliyi ilə teatr əsaslı şəkildə təmir olundu, tamaşaçı zalında yerlərin sayı 1200-ə çatdırıldı. 1906-cı ildə isə müsəlmanlar üçün iki böyük pərdələnmiş loja inşa olundu. 1908-ci ildə məhz bu binada Azərbaycanın ilk operası - Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" əsəri tamaşaya qoyuldu. 1909-cu ildə teatrda baş vermiş yanğından sonra Tağıyev əvvəlki ikimərtəbəli binanın yerinə üçmərtəbəli, bina inşa etdirdi. Tikinti işləri 1910-cu ildə tamamlandı və 1912-ci ildə Tağıyev teatrında sinematoqraf açıldı.

1921-1922-ci illərdə Zivər bəy Əhmədbəyov tərəfindən layihələndirilən yeni bina bərpa olunmuşdur. Binada 1960-cı illərə qədər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı fəaliyyət göstərmiş, sonradan isə burada Musiqili Komediya Teatrı yerləşmişdi. 1996-1998-ci illərdə bina yenidən inşa edilmişdir. O vaxtdan bəri Azərbaycan Dövlət Akademik Musiqili Teatrı burada fəaliyyətini davam etdirir.

Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Mərziyə Davudova və s. yüzlərlə sənətkar Azərbaycan teatrının inkişafında mühüm rol oynamışlar. Bundan əlavə, Üzeyir və Zülfüqar Hacıbəyov qardaşları Azərbaycan teatrının musiqili tamaşalarla zənginləşməsində böyük xidmətlər göstərmişlər. Onların yaratdıqları opera və operettalar milli teatr səhnəsinə yeni nəfəs gətirmiş və bu sahənin inkişafını stimullaşdırmışdı.

Sovet hakimiyyəti illərində Azərbaycan teatrı daha da inkişaf etdi. Hökumətin ideoloji nəzarəti altında olsa da, öz bədii-estetik gücünü qoruyub saxlaya bildi. Repertuarlarda Sovet ideologiyasını tərənnüm edən əsərlərlə yanaşı, xalqın həyatı, keçmişi, adət-ənənələri və milli irsi ilə bağlı tamaşalar da geniş yer aldı. Bu dövrdə Azərbaycan teatrı texniki və bədii baxımdan yenilənmə mərhələsinə qədəm qoydu. Aktyor sənəti daha da peşəkarlaşdı, teatr təhsili və rejissorluq məktəbi inkişaf etdi. SSRİ miqyasında keçirilən festivallarda Azərbaycan teatrı layiqli yer tutdu, dünya teatr ənənələri ilə daha yaxından tanış oldu və səhnə sənətinin universal dəyərlərini mənimsədi.

Milli teatr yeni inkişaf yoluna çıxmasında ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə, mədəniyyət və incəsənətin böyük hamisi kimi bu sahədə çalışanların sonsuz rəğbətini qazanmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri misilsizdir. Ulu öndər hər zaman teatra, yaradıcı insanlara böyük diqqət və qayğı ilə yanaşıb. Bu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 fevral tarixli Sərəncamı" buna bariz nümunədir.

2006-cı ildə Azərbaycanda "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. 2007-ci ildə Prezident İlham Əliyev teatr sənəti ilə bağlı daha bir mühüm sənəd olan "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncam imzalayıb. 2009-cu ildə isə dövlət başçısı "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramını təsdiq edib. Azərbaycan teatrının 10 illik inkişaf perspektivlərini müəyyənləşdirən Dövlət Proqramında milli-mədəni sərvətə çevrilən teatrın zəngin bədii irsinin və yaradıcı ənənələrinin qorunması, Avropa mədəniyyətinə inteqrasiyası, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, teatr binalarının dünya standartlarına uyğun təmiri, həmçinin repertuarın günün tələblərinə uyğun formalaşdırılması qeyd olunur.

Proqram çərçivəsində beynəlxalq teatr konfranslar keçirilib. Həmçinin Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Mingəçevir, Ağdam və Füzuli Dövlət Dram teatrlarının binalarında təmir və yenidənqurma işləri aparılıb. Dövlət Pantomima Teatrının bir hissəsi bərpa edilərək tamaşaçılara təqdim edilib. Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının 40 ildən çox həll olunmayan bina problemi öz həllini tapıb. Azərbaycan Dövlət Musiqili Teatrının binası dünya standartlarına uyğun təmir edilərək istifadəyə verilib. Son illərdə onlarla sənət adamına Prezident İlham Əliyevin sərəncamları ilə yüksək fəxri adlar verilib, hər il 100 istedadlı sənət adamı Prezident təqaüdünə layiq görülür. Həmçinin yüzlərlə insanın mənzil və digər sosial problemləri həll olunub. Hər il Azərbaycan sənətinə böyük xidmətləri olan şəxslər ömürlük təqaüdlə mükafatlandırılırlar.

Hər zaman sənət adamlarına xüsusi diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə "Milli Teatr Günü" təsis edilib. Sərəncama əsasən milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında Milli Teatr Günü kimi qeyd edilir. Bu gün ölkəmizin müxtəlif bölgələrində silsilə tədbirlərlə böyük ehtiramla qeyd olunur.

Azərbaycan teatrı zəngin tarixi, dərin mədəni kökləri və müasir inkişaf istiqamətləri ilə həm milli, həm də beynəlxalq səviyyədə öz mövqeyini möhkəmləndirir. Teatr yalnız sənət sahəsi deyil, həm də ölkənin mədəni kimliyini formalaşdıran mühüm amil olaraq böyük əhəmiyyət kəsb edir. Bu gün teatr sənətinin müxtəlif sahələrində əldə edilən nailiyyətlər və həyata keçirilən islahatlar, bu sahənin gələcəyinə daha böyük ümidlə baxmağa əsas verir. Azərbaycanın teatr mədəniyyəti beynəlxalq arenada da tanınır və hər yeni addım milli teatrımızın daha da inkişafına, dünyanın ən yaxşı teatrları sırasına daxil olmasına xidmət edir.

Ləman TƏHMƏZ,
"Respublika".